| YANLIŞ | DOĞRU |
|---|---|
| Palliativ və hospis yardımı alan xəstələrdə ağrı yalnız narkotiklərlə aradan qaldırılır. | Palliativ yardımda narkotik ağrıkəsicilər tətbiq olunsa da, müalicə bununla məhdudlaşmır. |
| Hospisə yalnız ölüm ayağında olan insanlar yerləşdirilir. | Hospis ölüm evi deyil, əksinə həyatı son ana qədər layiqli, ləyaqətli və kefiyyətli yaşamağa imkan verir. Hospisdə xəstənin qayğıya artan ehtiyyacları tibb personalı, sosial işçilər və din xadimləri tərəfindən qarşılanır. Hospis ailə üzvlərinin qayğı yükünün azalmasına da yardım edir. |
| Müalicəsi mümkün olmayan xəstəliklərdən əziyyət çəkən uşaqlar ən çox xərçəng (onkoloji) diaqnozu olanlardır. | Palliativ yardıma yönəldilən uşaqların yalnız 20%-i xərçəng xəstəliyindən əziyyət çəkir. |
| Sağalması mümkün olmayan xəstəliklərdən əziyyət çəkən uşaqlar cəmiyyətdə hər hansı bir rol oynamaq qabiliyyətindən məhrumdurlar. | Belə uşaqlar inkişaf etmiş intellektə, müxtəlif istedada malikdirlər. Onların fiziki məhdudiyyətlərinin aradan qaldırılması, ağrının tənzimlənməsi və göstərilən sosial dəstək belə uşaqların mənalı həyat sürməsinə kömək edir. |

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Bakı, AZ1122, H.Zərdabi küç., 96
431 12 72 430 52 85 office@isim.az
www.isim.az

Buklet "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiyanın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Fəaliyyət Planı"nın 9.3.1-ci bəndinə uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

# PALLİATİV YARDIM

## YANLIŞ *və* DOĞRU *fikirlər*

Azərbaycan Respublikası
**Səhiyyə Nazirliyi**





| YANLIŞ | DOĞRU |
|---|---|
| Palliativ yardım ağır vəziyyətdə olan xəstələrə göstərilən yalnız tibbi yardımdır. | Palliativ yardım xəstələrin və onların ailə üzvlərinin ehtiyaclarını nəzərə alır və onları sosial, tibbi, emosional, psixoloji və hüquqi yardım və dəstəklə təmin edir. |
| Palliativ yardım yalnız yaşlı insanlar üçün nəzərdə tutulub. | Palliativ yardım bütün yaşlarda olan pasiyentlər üçün əlçatandır. Palliativ yardımın böyük bir hissəsi sağalmaz və həyat müddəti məhdudlaşan böyüklərə və uşaqlara göstərilir. |
| Palliativ yardım yalnız ağrının yüngülləşdirilməsi ilə kifayətlənir. | Palliativ yardım sağalması mümkün olmayan xəstə və onun ailəsinin fiziki, emosional, sosial və mənəvi əzab və iztirablarının yüngülləşməsini və aradan qaldırılmasını özündə ehtiva edir. |
| Palliativ yardımı yalnız hospisdə* və ya xəstəxanada almaq mümkündür. | Palliativ yardım xidmətini evdə də göstərmək mümkündür. Bunun üçün palliativ yardım və ya hospis xidmətinin həkim və tibb bacıları xəstəni evdə qulluqla təmin edir, onun qohum və yaxınlarına düzgün qulluq göstərilmə qaydalarını öyrədirlər. |
| Palliativ və hospis yardımı yalnız xərçəng (onkoloji) diaqnozu qoyulmuş pasiyentlərə lazımdır. | Palliativ yardım həyat müddətini məhdudlaşdıran xəstəliklərə düçar olmuş bütün pasiyentlər üçün əlçatan olmalıdır. Sağalmaz xəstəliklərdən əziyyət çəkən insanların təxminən 70%-i həyat keyfiyyətlərini palliativ yardım hesabına yaxşılaşdıra bilər. |

**PALLİATİV YARDIM** xidməti həyatının son mərhələsində olan xəstələrə və onların ailələrinə yönəldilmiş xidmət olub, evlərdə, sağlamlıq mərkəzlərində, xəstəxanalarda və ya hospislərdə bir çox tibb işçisi və könüllülər tərəfindən icra olunur. Bu xidmət vasitəsi ilə xəstələrin həyat keyfiyyəti yaxşılaşır, psixoloji, fiziki və mənəvi iztirabları yüngülləşir, həmçinin onların evdə ailə üzvləri ilə bərabər olmalarına da imkan yaranır.

* Hospislər həyat müddətini məhdudlaşdıran ağır xəstəliklərdən əziyyət çəkən insanlara psixoloji, fiziki və mənəvi cəhətdən yardımçı olan xüsusi mərkəzlərdir.